# 29-cu sərgi

## Budəfəki Bakı Enerji Həftəsində daha çox "yaşıl layihə"lər təqdim olunur

"Bakı-Ekspo" Mərkəzi növbəti dəfə qapılarını iştirakçıların və ziyarətçilərin üzünə açıb. Xaricdən gələnlər dünyanın enerji sahəsində fəaliyyət göstərən lider şirkətlərin təmsilçiləridir. 37 ölkəni təmsil edən 300-dək şirkətin fəaliyyətini əks etdirən mərkəzdə bu dəfə fərqli ab-hava var.

Bu, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş tədbirin 30 illik fəaliyyətinin dəyərləndirilməsidir. ABŞ Prezidenti Co Baydenin Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubu isə enerji toplantısının ilbəil əhəmiyyətinin artdığını sübut edir. Hər kəs bunu gördü: 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi ("Caspian Oil&Gas") və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi ("Caspian Power") dünyada nadir enerji tədbirlərindəndir ki, ABŞ kimi nəhəng bir dövlətin diqqətini özünə cəlb edir.

Sentyabrda "Əsrin müqaviləsi"nin 30 yaşı tamam olacaq. "Bakı-Ekspo" Mərkəzi çox böyük əhəmiyyət kəsb edən bu təntənəni də özündə ehtiva etmişdi.

Prezident İlham Əliyev sərgilərin açılış mərasimindəki çıxışında bunları qeyd edərək onu da yada saldı ki, 28 il əvvəlki tədbirdə "Şahdəniz" müqaviləsi imzalanıb. İndi isə dövlətimizin başçısı və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl Cabirin tədbir çərçivəsində Neftçala, Biləsuvar Günəş-Elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoymaları yeni bir eranın başlandığından xəbər verdi.

İsveç, Hindistan və Sloveniyadan olan şirkətlər ənənəvi tədbirdə ilk dəfədir iştirak edirlər. Sərgilərə dəfələrlə qatılan, hətta daimi iştirakçı olan şirkətlər də az deyil.

"Bakı-Ekspo Mərkəzini ziyarət edərək, ayrı-ayrı stendlərdə, pavilyonlarda nümayiş etdirilən məhsullarla tanış olduq. Təmsilçilər və nümayəndələrlə söhbət etdik. İlk yaxınlaşdığımız stenddə Qazaxıstanın "Caspian İntegrated Maritime Solutions" şirkəti yer tutmuşdu. Şirkətin icraçı direktoru Şerxan Sugurbekov söhbət zamanı bildirdi ki, ötənilki sərgi şirkət üçün uğurlu olduğuna görə bu il yenidən iştirak etmək qərarına gəliblər. Direktor onu da vurğuladı ki, tədbir yüksək səviyyədə təşkil olunub. Bu isə xaricdən gələn şirkətlər üçün çox vacibdir.

Bakı Enerji Həftəsini əvvəlki toplantılardan fərqləndirən bir özəlliyi də tədbirin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçiriləcəyi "Yaşıl dünya naminə həmrəylik ili"ndə baş tutmasıdır. "Bakı-Ekspo" Mərkəzi bəşəriyyətin "canında yara"ya dönmüş iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizə elementlərini özündə ehtiva edən şirkətlərin fəaliyyətini də sərgiləyir. Onlardan biri özünün fəaliyyəti ilə bir sıra uğurlar




























qazanmış "Nobel Energy" şirkətidir. Şirkətin İctimaiyyətlə əlaqələr və kommunikasiyalar şöbəsinin rəhbəri Turxan Əhmədova yaxınlaşıb söhbət etdik. Suallarımızı məmnuniyyətlə cavablandıran şöbə müdiri dedi: "Nobel Energy" şirkətinin ən böyük uğuru ABŞ-də NASA üçün fəzaya göndərilən raketin dayaq blokunu hazırlamaqdır. Bu, həm şirkətimiz, həm də Azərbaycan üçün bir qürurdur. Onu da vurğulamaq istəyirəm ki, noyabrda baş tutacaq COP29 tədbirini böyük qürurla dəstəkləyəcəyik. Çünki "Nobel Energy"nin əsas istiqamətlərindən biri "yaşıl enerji" xidmətləri göstərməkdir. Günəş-Elektrik stansiyalarının tikilməsi, yel dəyirmanları, karbon qazının zərərsizləşdirilməsi, dəniz suyunun duzsuzlaşdırılması, hidrogen qurğularının istehsalı COP29 çərçivəsində dünyaya təqdim edə biləcəyimiz işlərdir. Həmin kontekstdə biz mühüm enerji həllərini də təqdim edə bilirik".

İllərdir Azərbaycan bazarında olsa da, "Nobel Energy"nin qrup olaraq sərgidə ilk dəfədir iştirak etdiyini söyləyən T.Əhmədov söhbətini davam etdirərək dedi: "Bugünkü sərgidə nümayiş etdirdiyimiz yarımdalma dəniz qurğusudur. Həmin platforma ən çətin, yəni köhnə neft quyularından səmərəli şəkildə, daha ucuz qiymətə və innovativ üsullarla hasilata dəstək verir. Bu da bir Azərbaycan şirkəti üçün yüksək nailiyyətdir. Çünki şirkətimiz ortaya dünya səviyyəli bir qurğu qoyub - həm dizayn edib, həm də tikib. Qurğu hazırda Meksika körfəzində fəaliyyət göstərir. "Nobel Energy" yarandığı gündən beynəlxalq şirkətə çevrilməyi hədəfləyib. Qürurla deyə bilərəm ki, şirkət ötən 20 il ərzində məqsədinə nail olmağı bacarıb. ABŞ, Kolumbiya, Türkiyə, Mərkəzi Asiya, Qazaxıstan və digər ölkələrdə çoxsaylı uğurlara imza atmışıq. Hazırda "Nobel Energy" şirkəti Azərbaycanda BP və SOCAR-ın mühüm strateji işlərini həyata keçirir. Belə ki, biz platformalarda qazma əməliyyatlarından tutmuş texniki işlərədək çoxsaylı xidmətlər göstəririk".

Sərgidə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) "yaşıl KOB" konsepsiyası ilə iştirak edir. Agentliyin dəstəyi ilə yaradılmış stenddə Kiçik və Orta Biznes (KOB) subyektlərinin və startapların "yaşıl layihə"ləri nümayiş olunur. 10-a yaxın KOB subyektinin alternativ və bərpaolunan enerji, ətraf mühitə təsirin ölçülməsi, təhlükəli tullantıların emalı və ləğvinə dair müxtəlif cihazlar və qurğular, "ağıllı suvarma" sistemləri sərgilənir, xidmətlər təklif edilir. Agentliyin əməkdaşları ilə söhbət zamanı bəlli oldu ki, məqsəd "Yaşıl dünya naminə həmrəylik ili"ndə və COP29 kimi mötəbər tədbir ərəfəsində yerli "yaşıl KOB"ları və startapların "yaşıl layihə"lərini geniş auditoriyaya tanıtmaqdır. Üstəlik, onların işgüzar əlaqələrini genişləndirməyə dəstək olmaq, KOB-ların "yaşıl iqtisadiyyat"da rolunun və "yaşıl KOB"ların sayının artırılmasını təşviq etməkdir.

Bakı Enerji Həftəsi iyunun 6-da yekunlaşacaq. Tədbirin proqramında ekoloji problemlər, bu problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr və onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular xüsusi yer tutur. Bakı Konqres Mərkəzində keçirilən Bakı Enerji Forumunda "Enerji təhlükəsizliyi və dayanıqlılığa dair beynəlxalq əməkdaşlıq", "Enerji təhlükəsizliyi 2.0", "Davamlı Enerji: Xəzər regionunda Yaşıl Enerji Potensialı", "Yeni texnologiyalar və rəqəmsallaşdırma" kimi mövzular müzakirə olunur.

*Züleyxa ƏLİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*